# Amfiteatr





Fikrimcə, kainatdakı planetlər yaradanın tamaşaya qoyduğu teatr səhnələridir. Mən Yer kürəsində çıxış edirəm. Mənə ayrılan rolu oynayıram. Səhnə onun, qoyduğu tamaşa onun, mənim də ipim onun əlində... Məndən yox, ondan, yaradandan soruşun!



## TEATRLARIMIZ PƏRDƏSİNİ AÇIR...

*Teatrların çoxunda mövsüm başlayıb, teatrların qapıları teatrsevərlərin üzünə açılıb. Təbii ki, yay ərzində teatr, səhnə üçün qəribsəyən sənət xiridarları əliboş qarşılanmayacaq. Bəzi teatrlarda bununçun hətta yay boyunca məşqlər gedib. Yeni mövsümün yeni tamaşaları, yeni layihələr, tədbirlər və qastrol səfərləri haqda bir neçə teatr öz fikirlərini bizimlə bölüşdü.*



**Əli Qasımov**
Gəncə Dövlət Dram Teatrının direktoru

Milli Azərbaycan teatrının 143-cü mövsümü sentyabrın 14-də Gəncədə açıldı. Açılış mərasimində respublikanın 26 teatrından qonaqlar, Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri, şəhər ziyalıları iştirak etdi. Teatrımızın baş rejissoru İradə Gözəlovanın quruluşunda Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" tamaşasının premyerası göstərildi.

Bu ilin sonunadək daha 2 əsər təhvil verilməlidir. Bunlardan biri Altay Məmmədovun "Dəli Domrul" əsəridi. Həmin əsərə əməkdar artist Telman Əliyev quruluş verəcək. Telman Əliyevi Bakıdan dəvət etmişik. Onun ardınca isə 2015-ci ilin repertuar planına daxil edilən daha bir əsərin məşqinə başlanacaq. Söhbət Əli Əmirlinin " 20 ildən sonra " pyesindən gedir. Həmin tamaşanın quruluşu isə dəvətli rejissorumuz Bəhram Osmanova tapşırılıb.



**Ağaddin Babayev**
Lənkəran teatrının ədəbi hissə müdiri

Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı rus dramaturqu Lev Korsunskinin "Kələkbaz" komediyası ilə özünün 125-ci mövsümünə başlayıb. Bəşəriyyətin əbədi mövzularından olan "atalar və oğullar"ın münasibətindən bəhs edən bu səhnə əsərində xeyirxah və isti münasibətlər öz

yerini tutur. Əsərdə demək olar ki, rəğbətdən kənar obraz yoxdur. Hadisələrin gözlənilməz dəyişkənliyi tamaşaçını çox hallarda ürəkdən gülməyə, bəzi məqamlarda isə kədərlənməyə vadar edir.

Rejissor - əməkdar artist Adil Zeynalov, rəssamı Məzaim Qurbanov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Əsas rolları xalq artisti Qabil Quliyev, əməkdar artist Sucəddin Mirzəyev, artistlərdən Allahverən Babayev, Miraslan Ağayev, Zemfira Əhmədova, Qızılgül Quliyeva, Sayad Əliyev, Təranə Əzizova ifa edirlər.

Teatrın direktoru Tofiq Heydərovun dediyinə görə, hazırda əməkdar artist Təvəkkül Əliyevin quruluşunda uşaqlar üçün eyni vaxtda iki səhnə əsəri - "Göyçək Fatma" və Şarl Perronun "Qırmızı papaq" nağıl-tamaşalarının məşqləri gedir.

Direktor bir də onu qeyd etdi ki, Lənkəran teatrı, Tehran şəhər teatrı ilə əməkdaşlığa başlayıb. İrandan dəvət olunmuş Xeyrulla Tağıpur lənkəran səhnəsində fars dramaturqu Bəhram Bizayinin "İlan Sultan" əsərini tamaşaya hazırlayır. Bu tamaşa qarşılıqlı surətdə həm İranda, həm də Lənkəranda oynanılacaq və gələn il Tehranda keçiriləcək Beynəlxalq Fəcr Festivalında göstəriləcəkdir.

Payız aylarında isə teatrın baş rejissoru Tural Mustafayevin quruluşunda Kamal Abdullanın "Unutmağa kimsə yox" əsərinin məşqlərinə başlanır.

2015-ci ildə Lənkəran Dövlət Dram Teatrının həyatında ən əlamətdar hadisə onun aparıcı teatr statusu almasıdır. Yeni Mədəniyyət və Turizm nazirliyinin əmri ilə iyun ayının 1-dən teatrda çalışan işçilərin əmək haqqı 25 faiz artırılıb.



**Loğman Kərimov**
**Şuşa Dövlət Musiqili Dram Teatrının baş rejissoru**

Şuşa Musiqili Dram Teatrı yeni mövsümə 3 yeni tamaşayla qədəm qoyur. Bu tamaşalardan biri sentyabr ayında baş tutacaq. Tamaşaçılar bu əsərlə artıq tanışdı. - "Boy çiçəyi", "Sən həmişə mənimləsən" adı ilə səhnələşdirilib həmin əsər. Adın nədən dəyişdirdiyimizi soruşsaz, cavab verərəm ki, əsər tam yeni üslubda, tam yeni formatda, modern bir tamaşa kimi təqdim olunacaq. Yəni, əsərin iştirakçısı çoxdu, 17-18 nəfər iştirakçı olmalıydı əslində, amma mən bunları azaldıb, əsas xətti götürmüşəm. Həsənzadə, Nargilə və Nargilənin anası Nəzakət xəttini. Odu ki, tamaşanın cəmi 4 nəfər iştirakçısı var. Və tamaşa mono deyilən bir variantda seyriçilərə təqdim olunacaq.

İkinci tamaşa - ölməz Cəfər Cabbarlının "Solğun çiçəklər" pyesinin artıq son məşqləri gedir. Oktyabrın əvvəllərində tamaşa teatrsevərlərə göstəriləcək. Oktyabrın ortalarına yaxınsa "Dədə Qorqud" eposundan "Buğac xan" boyunu tamaşaçılara təqdim edəcəyik. Həmin boyu türk dramaturqu Həsən Erkək pyes kimi işləyib. Bu tamaşada cəmi 6 iştirakçı var. Adı çəkilən səhnə əsəri meydan tamaşası kimi hazırlanır. Tamaşa musiqi və rəqslərlə zəngindi...

Növbəti ilçünsə daha bir neçə tamaşa hazırlamağı planlaşdırırıq. Seçimimizi dəqiqləşdirəndən sonra tamaşaların adlarını açıqlaya bilərəm.

Adı çəkilən tamaşalarla yanaşı teatrımızın repertuarında həm Bakıda, həm də Azərbaycanın müxtəlif bölgələrində oynanılan tamaşalarımız da var. Bunlardan: "Gözəlləri necə qaçırırlar", "Ağ qayıq", "Lənkəran xanının vəziri" və digər tamaşaları misal göstərmək olar...

**Tərlan Rəsulov**
**"Yuğ" Dövlət Teatrının direktoru**



Yeni mövsümü inşallah rejissor Ramiz Həsənoğlunun teatrımız üçün qurduğu sonuncu tamaşa ilə açırıq.

Bundan əlavə, Henrix İbsenin əsərləri əsasında "Vahimə", Turqut Narın əsərləri əsasında "Şok" tamaşalarını səhnələşdirməyi nəzərdə tutmuşuq. Bu tamaşaları cari ilin sonunadək hazırlamağı planlaşdırırıq.

Növbəti ilçün də bir neçə tamaşa layihəsi nəzərdə tutulub. Onlardan biri Polşadan dəvət olunacaq rejissor tərəfindən qurulmalıdı, hazırda Polşa tərəfi ilə müştərək danışıqlar gedir. Bundan əlavə, Yuğ teatrının Moskvada iki tamaşayla çıxışı nəzərdə tutulub. Amma bu da hələ layihə mərhələsindədi.

Mövsümün sonuna kimi daha iki tamaşa hazırlanacaq. Gənc rejissorlardan təqdimat

gözləyirik. Noyabr ayında bu məsələ həll olunmalıdı. O zaman hazırlanacaq tamaşaların adını açıqlaya biləcəyik. Biz əsasən gənclərlə əməkdaşlıq edirik. Və gənclərin teatr rejissorluğu sahəsindəki bilgilərini artırmaları məqsədilə də müəyyən layihələr planlaşdırılır. Teatrın gənc rejissorlarından Elgün Həmidovun təqdim etdiyi tamaşa üzərində hazırda işlər gedir, inşallah gələn ildə həmin tamaşa da teatrsevərlərə təqdim ediləcək.



**Hüsniyyə Mursaquliyeva**
Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının mətbuat katibi

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kollektivi özünün 88-ci mövsümünə başlayır. Sentyabrın 19-da azyaşlı tamaşaçılarımız üçün Hans Xristian Andersenin "Çirkin ördək balası", saat 19-da gənlərçün Vilyam Şekspirin "Romeo və Cülyetta" tamaşaları oynanılacaq. Sonrakı günlər Pərvin Nurəliyevanın "Dəcəl keçi", Hüseynbala Mirələmovun eyniadlı əsəri əsasında hazırlanmış "Miras" tamaşası nümayiş etdiriləcək. Bu tamaşa üzərində xüsusi dayanmaq istərdim. Benefis - tamaşa teatrın qocaman aktyoru, Əməkdar Artist Rahib Əliyevin anadan olmasının 70, səhnə fəaliyyətinin 50 illiyinə həsr olunub.Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı Sevinc Həsənova, rejissoru Gülnar Hacıyeva, musiqi tərtibatçısı İradə Muradovadır. Əsərdə əsas obrazları Əməkdar artistlər Rahib Əliyev, Şəfəq Əliyeva, Nəsibə Eldarova, Kəmalə Hüseynova, Qurban İsmayılov, Şövqi Hüseynov, aktyorlar Elşən Şirəliyev, Vüsal Mehrəliyev ifa edirlər. Ay ərzində müxtəlif yaş kateqoriyalarını əhatə edən tamaşaçılarımızı bir-birindən maraqlı tamaşalarla sevindirəcəyik.

Bundan əlavə, yeni mövsümdə bir sıra yeni tamaşalar da nəzərdə tutulur. Əjdər Olun "Biri var idi, biri yox", Sevinc Elsevərin "Ürəyində arzu tut" pyesi əsasında hazırlanacaq "Arzu və Murad" tamaşaları, eləcə də hər il olduğu kimi bu il də kiçik yaşlı tamaşaçılarımızdan ötrü xüsusi yeni il tamaşası hazırlanmalıdır.

Qarşılıqlı qastrol səfərləri haqda da məlumat vermək istərdim. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı və Kalmıkiya respublikası B. Basanqov adına Milli Dram Teatrı arasında artıq bir neçə ildir ki, qarşılıqlı yaradıcılıq müqaviləsi imzalanıb və bu müqavilə çərçivəsində hər iki tərəf, yəni həm Gənc Tamaşaçılar Teatrı, həm də Kalmık Milli Dram Teatrı qarşılıqlı qastrol səfərləri edir. Növbəti qastrol səfəri oktyabr ayının əvvəlində nəzərdə tutulur. Kalmık Teatrı Gənc Tamaşaçılar Teatrının səhnəsində 2 tamaşa ilə - A. S. Puşkinin "Qızıl balıq" və Əli Əmirlinin "Sevən qadın" əsərləri ilə çıxış edəcək. 26-30 oktyabr tarixlərindəsə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı Kalmıkiyaya səfər edəcək və orada iki tamaşa göstərəcəkdir.

Yay mövsümündə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, əməkdar artist Nofəl Vəliyevin uğurları bir daha bizi sevindirdi. Avqustun 18- 23 tarixlərində Türkiyənin Bursa şəhəri Mudanya bölgəsində"Yay tətili" adlı bir məktəb təşkil olunmuşdu. Aktyorumuz da həmin məktəbdə ustad dərsləri ilə çıxış edib. Həmin məktəb bu il yaradılıb. Türkiyənin müxtəlif şəhərlərindən məşhur teatr və kino mütəxəssisləri həmin məktə bə dəvət olunmuşdu. Əsas məqsəd gənc mütəxəssislərə teatr və kino sənətinin sirrlərini aşılamaq, onlara ustad dərsləri keçməkdi. Nofəl Vəliyevin ustad dərsləri böyük maraqla qarşılanıb. Bundan əlavə, Nofəl Vəliyev iki nominasiya üzrə mükafatlandırılıb. "Ən yaxşı rejissor işi"nominasiyasında mükafata aktyorumuz ötən il Antalya Böyük Şəhər Bələdiyyə Teatrında Pərvin Ünalpın "Gec qalanlar" əsəri üzrə səhnələşdirdiyi tamaşaya görə layiq görülüb. "Türkiyə xaricində mükafata layiq görülən teatrlar" nominasiyasındakı mükafatı isə Novəl Vəliyev ötən il Türkiyənin Dənizli şəhərində keçirilən beynəlxalq teatr festivalında göstərilən "Bekar qocalar" tamaşasına görə qazanıb.

Daha bir sevindirici hadisə - Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında ötən - 87-ci teatr mövsümündə hazırlanan "Xortdanın cəhənnəm məktubları" tamaşası tamaşaçıların diqqətini cəlb etmişdi. Kalmık Respublikası Basanqov adına Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar İncəsənət Xadimi və Azərbaycan Respublikası Fəxri Mədəniyyət İşçisi Boris Manciyevin yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyevin eyniadlı povesti əsasında hazırladığı tamaşa yerli mətbuatla yanaşı, xarici mətbuatda da yetərincə işıqlandırılıb.

◆